BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2008

# EKOLOJİ TƏHLÜKƏSİZLİK QLOBAL TƏHLÜKƏSİZLİK SİSTEMİNDƏ

**A.A.MƏHƏRRƏMOV**
***Bakı Dövlət Universiteti***

Qlobal təhlükəsizlik, indi daha qlobal olan ekoloji təhlükədən bəşəriyyətin müdafiəsi dərəcəsini xarakterizə edir. Belə olan halda istifadə olunan qlobal təhlükəsizlik anlayışının daha aydın başa düşülməsi və dəqiq ifadə olunması üçün «ekoloji qlobal təhlükəsizlik» terminindən istifadə olunur. Bu zaman ekoloji təhlükə ilə yanaşı, digər təhlükələr: demoqrafik, iqtisadi, sosial, hərbi, informasiya, enerci və s. təhlükələri də nəzərə alınır. Qlobal təhlükənin mahiyyətindən anlaşıldığı kimi, milli təhlükəsizlik qlobal təhlükəsizliyin bir hissəsi olub, dünyanın bütün ölkələrinin qlobal təhlükəsizliyin təminatı üzrə müştərək fəaliyyətlərini uzlaşdırmağa imkan verən dövlətlərarası qarşılıqlı münasibətlərin uzlaşmasının beynəlxalq mexanizmlərinin yaradılmasını daha zəruri edir (4, s. 16).

Burada qlobal təhlükələrin bir-biriləri ilə qarşılıqlı şəkildə əlaqədar olmaları və onların bəşəriyyət ilə biosferə təsirinin müxtəlif zaman kəsiklərində və müxtəlif kombinasiyalarda həyata keçiriləcəyi ehtimalı da böyük əhəmiyyət kəsb edir. Məsələn, soyuq müharibə dövründə ABŞ ilə SSRİ-nin qarşıdurması zamanı nüvə silahı fəal şəkildə yaradılaraq, onların ehtiyatları elə bir həddə çatmışdır ki, onun tətbiqi Yer kürəsində bütün canlı orqanizmlərin dəfələrlə məhvinə gətirib çıxara bilmək təhlükəsi doğurmuşdur. Nüvə silahlarının aparılan ixtisarı ona malik olan ölkələrin nüvə potensiallarını əhəmiyyətli şəkildə azaltmaqla planetdə qlobal təhlükəsizliyi əhəmiyyətli şəkildə artırmışdır. Lakin dünyada ekoloji şəraitin ağırlaşdığı yeni şəraitdə Yer kürəsində qalan nüvə silahı qlobal təhlükəsizlik üçün vacib təhlükələrdən birini yaradır. Onun məhv olan ekologiya şəraitində tətbiqi ətraf mühitə daha güclü təsirə malik olub, nəinki tətbiq olunduğu ölkələrdə, həmçinin qlobal miqyasda da böyük ziyan verə bilər.

İndiki dövrdə qlobal təhlükəsizliyin əsasları dünyada qlobal ekoloji böhranın inkişafına və başlanmasına, həmçinin qlobal dəyişikliklərə qarşıdurmanın nailiyyəti ilə müəyyən olunur. Onlar bir-biri ilə sıx şəkildə əlaqədar olsalar da, eyni zamanda miqyası və təzahür mexanizmləri ilə müəyyən olunan müxtəlif yaranma səbəblərinə də malikdirlər (3, s. 78). Qlobal təhlükəsizliklərin və planetar dəyişikliklərin və yaxud onların yaratdıqları təhlükələrin qarşılıqlı əlaqələrinin öyrənilməsi bunları həyata keçirməyi birbaşa zəruri edir:

- qlobal dəyişikliklər nəticəsində təhlükələrin yaranma imkanını, miqyasını və vaxtını müəyyən etmək;

- faciəli nəticələrin qarşısının alınmasının iqtisadi və texniki tədbirlərini işləyib-hazırlamaq;

- mənfi qlobal dəyişikliklər ilə mübarizə üzrə təcili və enercili tədbirləri işləyib hazırlamaq;

- bəşəriyyət üçün təhlükəsiz istiqamətdə qlobal dəyişikliklərin özünüinkişafı üçün şərait və istiqamətləri yaratmaq;

- qlobal dəyişikliklərə müştərək şəkildə qarşıdurma ilə bağlı dünya ölkələrinin iqtisadi səylərinin inteqrasiyasını aparmaq;

- qlobal təhlükələr ilə mübarizə üçün nəinki yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasını təmin edən, eləcə də hər bir vətəndaşı peşəkar fəaliyyətində və məişətdə də faciələrin qarşısının alınması üzrə məsuliyyətli hərəkətlər həyata keçirmək.

İqtisadi təhlükəsizliyin qlobal təhlükələr ilə qarşılıqlı təsirini sistemli mövqelərdən təhlil edərək, iqtisadi təhlükəsizliyin təhlükələrə təsirini realizə edən növbəti əsas istiqamətləri kimi aşağıdakıları müəyyən etmək mümkündür:

- qlobal dəyişikliklərə qarşıdurmanın iqtisadi təminatı;

- qlobal təhlükələrin qarşısının alınması üzrə informasiya fəaliyyətinin iqtisadi təminatı;

- ətraf mühitin müdafiəsinin təminatına, iqtisadiyyatın bütün sahələrində ekoloji baxımdan təmiz sənaye texnologiyalarının tətbiqini təmin edən təbiətdən rasional şəkildə istifadə sistemlərinin yaradılmasına dair elmi-texniki siyasətin realizəsi;

- insanın, cəmiyyətin, ölkələrin və onların məskunlaşdıqları mühitin qlobal dəyişikliklərdən müdafiəsinin hüquqi və sosial-iqtisadi mexanizmlərinin icra olunması və fəal şəkildə formalaşmaları üçün vətəndaşların peşəkar hazırlığını və mənəvi tərbiyəsini təmin edən təhsil sisteminin yaradılması;

Beləliklə, qlobal təhlükəsizlik anlayışının aparılan təhlili iqtisadi təhlükəsizlik, planetar təhlükələr və qlobal təhlükəsizlik arasındakı dərin əlaqənin varlığını nümayiş etdirir. Beynəlxalq təhlükəsizlik isə, hər bir ölkənin milli təhlükəsizliyinin xarici təzahürünə zəmanət verən, praktiki olaraq beynəlxalq və regional ziddiyyətlərə icazə verilən prosesdə müharibə və hərbi münaqişələri istisna edən beynəlxalq və hərbi-siyasi münasibətlərin mövcud olduğu vəziyyətdir. Beynəlxalq təhlükəsizliyin dəstəklənməsi sistemlərinin formaları müxtəlif ola bilər. Bu onların geosiyasi dairəsinin müxtəlif genişliyi, iştirakçı-ölkələrin inkişaf səviyyəsi, oriyentasiyaları ilə (siyasi, iqtisadi, hərbi) şərtləşdirilir.

Hər bir dövlətin xarici və daxili siyasi fəaliyyətinin istiqaməti ölkənin obyektiv şəkildə mövcud olan milli maraqlar, bu maraqlar üçün yaranan təhlükə və bu təhlükələrə qarşıdurma zərurəti ilə əlaqədardır. Bu üçlüyün qarşılıqlı əlaqəsi və qarşılıqlı şəkildə şərtləşdirilməsi (maraqlar, təhlükə, qarşıdurma) – milli təhlükəsizliyin təməlidir (14, s. 37-39).

Beləliklə, XXI əsrin astanasında planetdə bəşəriyyətin təhlükəsiz şəraitinin təminatı məsələsi bütün kəskinliyi ilə meydana çıxır. Belə ki, müasir aparıcı alimlər tərəfindən bəşəriyyətin və biosferin proqnozlu təhlili Yer kürəsi sivilizasiyasının qlobal; ekoloji, iqtisadi, hərbi, enerci, demoqrafik, nüvə təhlükələrinin yaranması ilə məhvi imkanını aşkar etmişdir. Qlobal təhlükələr Yer kürəsindəki vəziyyəti köklü şəkildə dəyişmişdir; onların təzahürü gözlənilməyən faciələr təhlükəsini yaradır və planetin elə sürətlə dəyişməsinə səbəb olur ki, insanı da daxil etməklə

müasir canlı birliklərin və növlərin bu dəyişikliklərə uyğunlaşmalarına imkan vermir və bu da onların məhvinə şərait yaradır. Məsələn, 1972-1992-ci illərdə ətraf mühitdə müşahidə olunan dəyişikliklər ekoloji fəlakətin mövcudluğunun və onun inkişafı ehtimalının artımının təsdiqi kimi çıxış edə bilər (13, s. 56-58):

- il ərzində quruda 0,5-1% sürətlə təbii ekoloji sistemlərin sahələrinin ixtisara salınması (90-cı illərin əvvəllərində onlar təxminən 40% müşahidə olunmuş, 2030-cu il təmayülünün qorunması zamanı isə quruda onun tam ləğvi zərurəti yaranacaqdır);
- atmosferdə parnik qazlarının konsentrasiyasının dəyişilməsi (1972-1992-ci illərdə parnik qazlarının il ərzində on faizdən bir neçə faizə kimi konsentrasiyasında artım müşahidə olunmuşdur);
- ozon təbəqənin il ərzində 1-2% köhnəlməsi, ozon yırtıqlarının sahəsinin artımı;
- meşə sahələrinin 1980-ci ildə 117 min kvadrat kilometr, 1989-cu ildə isə 180 ± 20 min kvadrat kilometr sürətlə ixtisara salınması;
- səhra sahələrinin il ərzində 60 min kvadrat kilometr genişlənməsi, texnogen səhraların çoxalması;
- 1972-1992-ci illərdə eroziyanın hər il geniş artımı, məhsuldarlığın azalması, çirkləndiricilərin, turşuların, duzların toplanması;
- il ərzində okeanın səviyyəsinin 1-2 mm artımı;
- il ərzində təbii fəlakətlərin və texnogen qəzaların sayının 5-7%, ziyanın 5-10%, qurbanların sayının 6-12% artımı;
- bioloji növlərin yoxa çıxması;
- quru sularının keyfiyyətcə pisləşməsi (çirkab suların həcminin artımı, çirklənən sahələrin, polutantların sayının və onların toplandığı yerlərin çoxalması);
- mühitin radioaktivliyinin artımı;
- həyatın keyfiyyətinin pisləşməsi, ətraf mühitin çirklənməsi ilə əlaqədar xəstəliklərin artımı.

Beləliklə, dünyada ekoloji böhranın başlanması bəşəriyyəti dünyada baş verən qlobal dəyişikliklər kompleksinin daha dərindən təhlili zərurəti qarşısında qoymuşdur. Yaranan böhranın xüsusiyyətləri kimi qeyd edilə bilər:

- bütün bəşəriyyətə təsir və onun inkişafının qeyri-adi yüksək templəri;
- onun təzahürü miqyaslarının qloballığı;
- dəyişikliklərin və təhlükələrin qlobal ekoloji böhranın inkişafı prosesinə inteqrasiyalı təsiri;
- meydana çıxan problemlərin həlli bütün bəşəriyyətin səylərinin birləşdirilməsini tələb edir;
- biosferin qorunması qanunlarının istifadəsi və mənimsənilməsi zərurəti;
- təbii ehtiyatların istehlakının azalması;
- planet xalqlarının qarşılıqlı səbri və sülhsevərliyi;
- planetar inkişaf məqsədlərinə şüurlu şəkildə nail olunması.

Ölkə iqtisadiyyatına böyük ziyan vuran və bir çox ölkələrin sonrakı uğurlu inkişafına mane olan təbii fəlakətlər, təbii və texnogen faciələr bəşəriyyət üçün vacib qlobal təhlükələrdən biridir. Məsələn, Çin mütəxəssislərinin qiymətlərinə əsasən bu ölkədə təbii fəlakətlər nəticəsində dəyən ziyan ümumi milli məhsulun 4-8%-ni təşkil edərək illik sənaye

artımı göstəricilərinin səviyyəsinə çata bilər. Dünyada baş verən faciələrin təhlilindən göründüyü kimi onların sayı artır və onlar müasir insan üçün daha böyük təhlükə yaradırlar. YUNESKO-nun məlumatlarına əsasən son yüzillik ərzində təkcə daşqınlardan 9 milyon nəfər insan tələf olmuş və külli miqdarda ziyan vurulmuşdur. Təbiətin daha dağıdıcı təhlükələrindən biri olan vulkan püskürməsi hər zaman insanlar üçün böyük təhlükə yaratmışdır (18, s. 68).

Bütövlükdə ekoloji təhlükəsizliklə əlaqədar, bir-birilə əlaqədar olan bir sıra istiqamətlər kimi bunlar fərqləndirilə bilər:

- Şəxsin, cəmiyyətin və dövlətin ekoloji təhlükəsizliyi;

- Ekoloji təhlükəsizliyin təmin edilməsi – «çirkləndirilmiş təbii obyektlər tərəfindən təhlükələrin neytrallaşdırılması üzrə təşkilati-hüquqi, ekoloji-iqtisadi, elmi-metodik, mühəndis-texniki, tərbiyələndirici və digər xarakterli tədbirlər kompleksinin həyata keçirilməsi, daha doğrusu, onların əhali, ərazi texnogen və təbii (çirklənməmiş) obyektlər üçün təhlükəsiz» vəziyyətlərinin təmin edilməsi;

- Ekoloji təhlükəsizliyin təmin edilməsi məqsədi – ekoloji böhranın dərinləşməsi və təbiətə texnogen fəaliyyətin güclənmiş mənfi təsirlərinin nəticəsində şəxsin müdafiəsinin artırılması;

- Ekoloji təhlükəsizlik sistemi - «təhlükəsizliyin təmin edilməsində subyektlərin təşkilati-funksional birliyi, vahid məqsədə malik olan – obyektin (ərazi, əhali) ekoloji təhlükəsizliyin tələb olunan səviyyədə dəstəklənməsi, razılaşdırılmış lokal məqsədlər və ümumi hüquqi, təşkilati, maliyyə-iqtisadi, material, mövsümi və digər məhdudiyyətlər şərtləri ilə bu məqsədlərə nail olmaq üçün müvafiq iqtisadi-hüquqi mexanizmlərin istifadə olunması ilə həyata keçirilməsi».

Bu zaman ekoloji siyasət mühüm mərkəzi yer tutur. «Ekoloji siyasət» (environmental policy) – insan və cəmiyyətin fəallığının ətraf mühitə olan əlverişsiz təsirini azaltmağa yönəlmiş fəaliyyəti əhatə edən nisbətən yeni anlayışdır. Ekoloji siyasət sabit inkişaf strategiyasının həyata keçirilməsinin ən vacib alətlərindən biridir. XX–XXI əsrin astanasında, sivilizasiyanın qlobal böhranı şəraitində ekoloji siyasət bütün münasibətlər - qlobal, beynəlxalq, milli, regional, korporativ, ictimai və digər münasibətlər səviyyəsində fəaliyyətin əhəmiyyətli amil və istiqamətinə çevilmişdir. Ekoloji siyasətin çoxsaylı tərifi olsa da, onlardan heç biri müfəssəl deyildir. Bu, müasir cəmiyyətin struktur və dinamikası, qlobal və digər ekoloji problemlərin artması ilə şərtlənən münasibətlərin yeniliyi, mürəkkəbliyi və çoxcəhətliyi ilə izah edilir (4, s. 44). Beləliklə, ekoloji siyasət:

-Təbii resurslardan rasional istifadəni təmin etmək, çirklənməni və tullantıları azaltmaq və biosferin həyat yaratma funksiyalarını saxlamaq üzrə məqsədyönlü fəaliyyətdir;

- İnsan və cəmiyyət üçün zərərli olan təsirlərin qarşısını almaq, azaltmaq və ləğv etmək məqsədi ilə cəmiyyətin təbiətə məqsədyönlü təsiri ilə bağlı tədbirlər sistemidir. Ekoloji siyasətin həll edilməsi elmi-texniki tərəqqinin, maddi istehsalın və ictimai düşüncənin ekologiyalaşdırılmasının, təbiətin mühafizəsi sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin sürətləndirilməsini şərtləndirən təkcə cari deyil, həm də perspektiv vəzifələri əks etdirir;

- Sağlam və təhlükəsiz yaşayış mühitinin bərpası və saxlanılmasına, dəyərlərin təməl sisteminin dəyişdirilməsindən, hüquq və azadlıqlara

riayət edilməsindən tutmuş təbiəti qoruyan texnologiyanın geniş istifadəsi əsasında sənaye istehsalının yenidən qurulmasına qədər cəmiyyətin bütün həyat fəaliyyəti sferalarının tədricən ekoloji müasirləşdirilməsi yolu ilə sosial-ekoloji konfliktlərin həll edilməsinə yönəlmiş elmi əsaslandırılmış siyasətdir;

- Ətraf mühitin mühafizəsi sahəsində nailiyyətlərin imkan və müddətlərinə görə hesablanmış və ekoloji strategiya tərəfindən qoyulmuş məqsədlərə çatmaq, əhalinin sağlamlığını qorumaq və təbii resursları rasional istismar etmək, eləcə də siyasi, sosial və iqtisadi vəzifələri həll etmək üçün ekoloji münasibətləri istifadə etmək məqsədli fəaliyyətdir. Ekoloji strategiyanın həyata keçirilmə səviyyəsindən asılı olaraq, qlobal, milli, regional və lokal ekoloji siyasət fərqləndirilir.

Beləliklə, ekoloji siyasət – bütün fəaliyyət sferalarını və bütün qərarları əhatə edən çox mürəkkəb, çoxvariantlı və çoxaspektli anlayışdır. Ekoloji siyasət ekologiya və siyasətin qovşağında yerləşir. Siyasət – müxtəlif sosial subyektlərin öz aralarında və məsələlərin həllinin onların birgə səylərini tələb etdiyi kontekstdə qarşılıqlı təsir prosesidir, bu proses təkcə subyektlər tərəfindən deyil, eləcə də çoxsaylı maraqların məcmusu ilə istiqamətlənir. Ekoloji siyasət kifayət qədər araşdırılmayan tarixə, mərhələlərə və qanunauyğunluqlara malikdir.

Ekoloji siyasətin proqnozlaşdırılması və inkişafı üçün önəmli şərt baş verən proseslərin dərin analizidir. Qloballaşma dövründə ekoloji siyasət sabit inkişaf strategiyasının həyata keçirilməsi üçün güclü sosial-ekoloji texnologiyaya və önəmli alətə çevrilməkdədir. Bu zaman, ilk növbədə, sabit inkişaf məqsədlərinə nail olmaq üçün çoxsaylı digər siyasətlər (iqtisadi, elmi, texniki və s.) arasında ekoloji siyasətin prioritetini artırmaq zəruridir.

Beləliklə, müasir dünyada ekoloji problemlərin əhəmiyyəti və onların həllinin vacibliyi ciddi etiraf edilməlidir. Bundan əlavə, beynəlxalq cəmiyyətdə ekoloji problemlərə, təhlükəsizliyə təhlükə kimi baxılmağa başlanmışdır. Buna görə də tədqiqatçılar arasında ekoloji təhlükəsizlik konsepsiyasının saxlanılması haqqında müzakirələr davam etdirilir. Hesab edirik ki, ekoloji təhlükəsizliyin təmin olunması üzrə fəaliyyət çoxşaxəli olmaqla, mövcud anlayışın mahiyyətinə baxışların müxtəlifliyi də bu problemin kompleks xarakterindən asılıdır.

## QEYDLƏR


1. Hüseynov L.H.Beynəlxalq hüquq. Bakı: 2002.
2. Авраменко И.М. Международное экологическое право. М.: 2005.
3. Ахатов А.Г. Экология и международное право (международные экологические организации и правовые акты). М.: 1996.
4. Балашенко С.А., Макарова Т.И. Международно-правовая охрана окружающей среды и права человека. Минск: 1999.
5. Башкин В.Н. Глобальное потепление и глобальное изменение климата. Бюллетень «Использование и охрана природных ресурсов в России», 2001, №6, с. 70-78.
6. Бринчук М.М. Экологическое право. М.: 2000.
7. Гиззатулин Т.И. Международно-правовое регулирование трансграничной перевозки опасных отходов. Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. М.: 2002.
8.Ерофеев Б.В Экологическое право. М.: 1996.

9. Колбасов О.С. Международно-правовая охрана окружающей среды. М.: 1982
10. Копылов М.Н. Право на развитие и экологическая безопасность развивающихся государств (международно-правовые вопросы). Автореферат диссертации на соискание ученой степени доктора юридических наук. М.: 2001.
11. Грабб М., Вролик К., Брэк Д. Киотский протокол. Анализ и интерпретация. Пер. с англ. М.: 2001.
12. Морозов В.И. Киотский протокол и предложения по позиции МПР России. Бюллетень «Использование и охрана природных ресурсов в России», 2002, №4, с. 89-94.
13. Мышко Ф.Г. Экологическая безопасность. М.: 2003.
14. Соколова Н.А. Теоретические проблемы международного права окружающей среды. Иркутск: 2002.
15. Сорокина Ю.С. Проблемы международно-правового регулирования торговли квотами на выбросы парниковых газов. Автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. М.: 2003.
16.Тимошенко А.С. Формирование и развитие международного права окружающей среды. М.: 1986.
17. Шувалова Е.А. Международные и национальные особенности правового регулирования охраны атмосферного воздуха. Проблемы Киотского протокола. Шуя: 2006.
18. Birnie P., Boyle A. International Law and Environment. L.: 1992.

## ЭКОЛОГИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ В СИСТЕМЕ ГЛОБАЛЬНОЙ НЕЗАВИСИМОСТИ

**А.А.МАГЕРРАМОВ**

### РЕЗЮМЕ

В статье основные направления деятельности международных организаций в решении экологических проблем анализируется на основе международной практики и различных мнений. Автор приходит к выводу, что нормотворчество международных организаций, практика кодифицирования составляет основу глобальной экологической безопасности. Одновременно считается необходимым расширение международного сотрудничества в решении этих экологических проблем в рамках международных универсальных и региональных организаций, как ООН и его специализированные учреждения и неправительственных организаций.

## ECOLOGICAL SECURITY IN THE SYSTEM OF THE GLOBAL SECURIRY SYSTEM

**A.A.MAQERRAMOV**

### SUMMARY

In given article there were analyzed environmental problems at presence in literatures various from each other ideas and on the basis of the help of the international practice. Obvious there is that that on the basis of all legislative documents there is an activity of the international organizations. On by that importance and big a role of pauperizations of all activities such organizations like intergovernmental, non-governmental international organizations and the United Nations and its specified organizations in mass organization of regulation of this problem has been noted.